ISSN:2148-2292

Akademik Tarih ve Düşünce Dergisi, 2019, 6 (4), ss. 2541-2555

Academic Journal of History and Idea, 2019, 6 (4), pp. 2541-2555

Araştırma Makalesi
Original Article

# Bölgelerin Sosyo-Ekonomik Gelişimine dair Üçüncü Devlet Programı (2014-2018) ve Şeki'de Sanayi Kalkınması

**Elçin Veliyev***

**ORCID: 0000-0002-6735-9064**

**Öz**

Ülkenin sosyo-ekonomik gelişimini hızlandırmak için 2004'ten bu yana beş yıllık Devlet Programları kabul edilmiştir. Her Devlet Programının uygulanmasıyla yeni bir gelişim aşaması yakalayan Şeki bölgesinin iç yaşamının çeşitli alanlarında hızlı bir gelişme kaydedilmiştir. 2014-2018 üçüncü Devlet Programı çerçevesinde alınan önlemler neticesinde, sanayi hem niceliksel hem de niteliksel olarak değişmiştir. Bu makalede, ilk kaynaklar tarafından sağlanan bilgilere dayanarak, 2014-2018 yılları arasında Şeki'de sanayi sektörünün gelişimi ile ilgili eğilimler incelenmiştir.

**Anahtar kelimeler:** Şeki şehri, sanayi işletmeleri, Bölgelerin Gelişimine dair Devlet Programı, ipekçilik,

**Gönderme Tarihi: 09/10/2019** **Kabul Tarihi:23/12/2019**

---

* *Doktora Öğrencisi, Azerbaycan Milli İlimler Akademisi, A.A.Bakıhanov adına Tarih Enstitüsü, E-posta: elcin-veliyev-1985@mail.ru*

© ATDD Tüm Hakları Saklıdır

# The third state program on the socio-economic development of regions and the development of the industrial sector of the city of Sheki (2014-2018)

**Abstract**

In order to accelerate the socio-economic development of the regions of Azerbaijan, since 2004, the relevant five-year government programs have been adopted. The activities carried out within the framework of the implementation of state programs contributed to the development of various industries of the city of Sheki. As a result of the measures implemented under the Third State Program, which covered the years 2014-2018, both quantitative and qualitative changes took place in Sheki's industry, new enterprises were created using the most modern technologies. In the presented article, on the basis of archival materials and statistical data, trends in the development of the industrial sector of the city of Sheki in 2014-2018 are analyzed.

**Keywords:** Sheki city, industrial enterprises, State program for regional development, sericulture

**Received Date: 09/10/2019** **Accepted Date: 23/12/2019**

# Третья государственная программа по социально-экономическому развитию регионов и развитие промышленного сектора города Шеки (2014-2018 гг.)

**Резюме**

С целью ускорения социально-экономического развития регионов Азербайджана с 2004-го года принимаются соответствующие пятилетние государственные программы. Мероприятия, осуществленные в рамках реализации государственных программ содействовали развитию разных отраслей промышленности города Шеки. В результате осуществленных мер в рамках Третьей Государственной Программы, охватившей 2014-2018 годы, в промышленности Шеки произошли как количественные, так и качественные изменения, были созданы с применением самых современных технологий новые предприятия. В представленной статье на основе архивных материалов и статистических данных проанализированы тенденции развития промышленного сектора города Шеки в 2014-2018 годах.

**Ключевые слова:** город Шеки, промышленные предприятия, Государственная программа по развитию регионов, шелководство

**Получено: 09/10/2019** **Принято: 23/12/2019**

## Giriş

Regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü siyasətin davamı olaraq 2014-cü ilin fevralın 27-də Azərbaycan Respublikası Prezidenti tərəfindən "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiqləndi. Bu sənəddə qeyd edilirdi ki, əvvəlki proqramın "uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin daha da yüksəlməsində mühüm rol oynamışdır". [1] 2014-cü ilin fevralında qəbul olunmuş III Dövlət Proqramının əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası, regionların sürətli inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarət olmuşdur.[2] "Dövlət Proqramı"nda Şəki rayonu üzrə müasir çörək istehsalı müəssisəsinin yaradılmasının dəstəklənməsi, cins heyvandarlıq, quşçuluq, ipəkçilik, iri taxılçılıq, üzümçülük və digər kənd təsərrüfatı sahələrinin inkişafının dəstəklənməsi, yerli əhəmiyyətli avtomobil yollarının tikintisinin, yenidən qurulmasının, əsaslı təmirinin və körpülərin təmirinin, tikintisinin davam etdirilməsi, o cümlədən Aşağı Göynük-Baş Göynük-Baş Şabalıd avtomobil

---

[1] "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", 384.

[2] "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cü il tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmişdir" *Azərbaycan Respublikasının Qanunvericilik Toplusu*, yanvar 2019-cu il, sy. 1, 240.

yolunun tikintisi və Şəki-Kiş avtomobil yolunun yenidən qurulması və s tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdu[3].

## 2014-2018-ci illərdə Şəki şəhərinin sənaye sektorunun inkişafı

2014 cü ildə Şəkidə ən müasir texnologiyalar əsasında "Sünbül" çörək zavodu istifadəyə verildi. Tikintisinə 2013-cü ilin martında başlanan bu müəssisədə Çex Respublikası, Almaniya və İtaliyadan gətirilmiş ən müasir çörəkbişirmə avadanlığı quraşdırılmışdır. Gündəlik layihə gücü 30 ton olan zavodda ilk əvvəl gün ərzində istehsal gücü 14 ton olan birinci xətt istismara verilmişdir. İlkin mərhələdə zavodda iki çeşiddə - zavod çörəyi və lavaş istehsal olunurdu. 2015-ci ilin əvvəlində gündəlik istehsal gücü 16 ton olacaq ikinci xəttin quraşdırılması nəzərdə tutulmuşdu.

2014-cü ilin I rübündə ilkin hesablamalara görə faktiki qiymətlərlə 73 milyon 242 min manatlıq məhsul buraxılmışdı ki, bu da 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 0,1 faiz çox idi. Adambaşına faktiki qiymətlərlə 408 manatlıq məhsul buraxılmışdı. Həmin ildə rayon üzrə orta aylıq əmək haqqı 240 manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz çox idi. Rayonda 22 sənaye müəssisəsi fəaliyyət göstərir. Bunların 14-ü kiçik müəssisədir. 2014-cü ilin I rübündə Şəki rayonunda istehsal və qeyri istehsal sahələrinin inkişafına yönəldilmiş investisiyanın həcmi 22 milyon 200 min manat olmuşdur ki, bu da 2013-ci ilin müvafiq dövrü ilə müqayisədə 95 faiz təşkil edir. İstifadə edilmiş investisiyanın 37,1 faizi dövlət mülkiyyətinin, 62,9 faizi qeyri-dövlət mülkiyyətinin payına düşür. [4]

2015-ci ildə Şəkidə 27 sənaye müəssisəsi fəaliyyət göstərirdi. Bu müəssisələrdəki sənaye məhsulunun həcmi 12388 min manat, sənayedə çalışan

---

[3] "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı" *Azərbaycan Respublikasının Qanunvericilik Toplusu*, 28 fevral 2014-cü il, sy. 2, 502.

[4] Məzahir Əhmədoğlu, "İndi Şəkidə bütün məsələlərin ana xətti yüksəlişdən keçir", *Ədalət qəzeti,* 3 may, 2014-cü il, 19.

işçilərin orta sayı 1395 nəfər, onların orta aylıq əmək haqqı 299,4 manat idi[5]. 2016-cı ildə Şəkidəki 31 sənaye müəssisəsinin məhsul buraxılışının həcmi 22622 min manat olmuşdu. Bu müəssisələrdə çalışan işçilərin orta sayı 1682 nəfər, orta aylıq əmək haqqı 300,5 manat təşkil etmişdi[6]. Buraxılmış məhsulun 8 faizi dövlət, 92 faizi qeyri dövlət mülkiyyətinin payına düşür. Adambaşına faktiki qiymətlərlə 1350 manatlıq məhsul buraxılmışdı. Şəki rayonunda əmtəə dövriyyəsinin ümumi həcmi 226 milyon 650 min manat olmuşdu. Bu 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 111,3 faiz təşkil edirdi. 2015-ci ilin 9 ayında Şəki rayonunda istehsal və qeyri istehsal sahələrinin inkişafına yönəldilmiş investisiyanın həcmi 25 milyon 388 min manat olmuşdu ki, bunun da 92,2 faizi dövlət mülkiyyətinin, 7,8 faizi qeyri-dövlət mülkiyyətinin payına düşürdü. Ötən dövr ərzində əsas kapitala yönəldilmiş investisiyanın 75,2 faizi tikinti quraşdırma işlərinə sərf edilmişdir.[7]

2017-ci ildə 19 sənaye müəssisəsində 27556 min manatlıq sənaye məhsulu buraxılmış, sənayedə çalışan 1710 işçinin orta aylıq əmək haqqı 392,6 manat təşkil etmişdi[8].

2014-2018-ci illərdə Şəki şəhərində sənayenin inkişafını göstərən cədvəl.[9]

| İllər | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Sənaye müəssisələrin sayı | 26 | 27 | 31 | 19 | 22 |
| İstehsal gücü (milyon manat) | 209,38 | 123,88 | 226,22 | 275,56 | 459,23 |
| orada çalışan işçilərin sayı | 1666 | 1396 | 1682 | 1710 | - |
| işçilərin orta aylıq əmək haqqı | 245,3 | 299,4 | 300,5 | 392,6 | - |

[5] "Azərbaycanın regionları", *Statistik məcmuə,* Bakı: Az. Respublikasının Dövlət Statistika Komitəsi, 2016, 296.
[6] "Azərbaycanın regionları", 276.
[7] Məzahir Əhmədoğlu, "Ənənələri yaşadan və modernləşən Şəki" *Ədalət qəzeti,* 8 noyabr, 2015-ci il.
[8] "Azərbaycanın regionları", 266.
[9] Cədvəl aşağıdakı mənbələrin verdiyi məlumatlar əsasında hazırlanmışdır: "Azərbaycanın regionları", Bakı: 2015, 297; "Azərbaycanın regionları", 296; "Azərbaycanın regionları", Bakı, 2017, 276; "Azərbaycanın regionları", Bakı, 2018, 266; Məzahir Əhmədzadə, "Tərəqqi: Qədim - müasir Şəki", *Ədalət qəzeti,* 1 mart, 2019-cu il, 3.

Cədvəldən də göründüyü kimi, 2014-2018-ci illərdə sənaye müəssisələrinin istehsal gücü 248,85 milyon manat artmışdır. Şəkinin iqtisadi həyatında mühüm yer tutan sahələrdən biri (və uzun illər boyu birincisi), ipəkçilikdir. "Şəki-İpək" ASC-nin fəaliyyətinin ən çətin dövrlərində Şəki ipəyinin şöhrətinin qaytarılması, kombinatın normal iş ahənginin təmin olunması üçün Ulu Öndər Heydər Əliyev maddi-texniki bazanın möhkəmləndirilməsi, işin səmərəliliyinin artırılması məqsədi ilə, 2001-ci ildə müvafiq sərəncam imzalamışdı.

İpəkçiliyi inkişaf etdirmək üçün 2013-cü ildə 46800 ədəd tut tingi əkilmişdir. 285 hektar bar verən, 20 hektar təzə salınan tut bağlarında aqrotexniki qulluq işləri aparılmış və 150 qutu barama qurdu toxumu əldə edilmiş və 2851 kq barama istehsal edilmişdir. Nəticə olaraq 2014-cü ildə 185 min kvadrat metr ipək parça, 84,4 min kvadrat metr hazır pambıq-parça[10], 2015-ci ildə 272,4 min kvadrat metr ipək parça istehsal edilmişdi[11].

“Sənaye ili” elan edilmiş 2014-cü ildə ölkəmizdə sənayeləşmə ilə bağlı düşünülmüş siyasət aparılıb. Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovun 2014-cü ildə Şəkinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair məruzəsində qeyd olunur ki, rayonda inkişaf etdirilməsi nəzərdə tutulan sahələrdən biri ipəkçılık sənayesidir. Bu sahədə hazırlanmış tədbirlər planının başlıca məqsədlərindən biri ötən əsrin 70-ci illərində respublikada müvəffəqiyyətlə inkişaf edən və 14 min nəfərdən çox adamın istehsal etdiyi 1,5-2 min ton yaş barama göstəricilərinə çatmaq, müasir avadanlıq və texnologiyaların köməyi ilə daha çox istehsala nail olmaqdır. 10 il ərzində həyata keçirilməsi nəzərdə tutulan ipəkçiliyin inkişafına dəstək proqramı çərçivəsində bu sahənin inkişafına 50 milyon manatdan çox sərmayə qoyuluşu planlaşdırılır. Nəticədə rayonda 2 min daimi, 8 min mövsümü iş yeri yaradılacaq[12].

---

[10] “Azərbaycanın regionlar”, 297.
[11] “Azərbaycanın regionları”, 296.
[12] “Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovun 2014-cü ildə Şəkinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair məruzəsi.” http://sheki-

2016-cı ildə Çindən 49,5 kq tut ipəkqurdu toxumu gətirilərək respublikamızda ipəkçiliklə məşğul olan 24 rayonun kümdarlarına paylanmışdır. Həmin ildə rayonda 50 min yerli, 25 min xaricdən gətirilmiş tut tingi əkilmişdir. Nəticədə 2015-ci ildə respublikada cəmi 725 kq barama istehsal edildiyi halda qısa vaxtdan sonra bu rəqəm 70,7 tona çatır[13]. 2016-cı ildə Şəki-İpək müəssisəsində 221,6 min kvadrat metr ipək parça, 57,5 min kvadrat metr hazır pambıq-parça, 9 ton xam ipək istehsal olunur[14].

2016-cı ildə Şəkidə 9751 kq barama istehsal olunmuşdur ki, bu da proqnozun 115 faiz yerinə yetirilməsi deməkdir. 2016-cı ilin payızında rayonda "Şəki- İpək" ASC-nin tinglik təsərrüfatında yetişdirilmiş 50 000 ədəd tut tingi bağ salınması məqsədilə əkilmişdir. Bundan əlavə Çin Xalq Respublikasından ölkəmizə idxal olunmuş tut tinglərinin 25 000 ədədi rayonun Baş Göynük, Aşağı Göynük, Böyük Dəhnə, Suçma kəndlərində və şəhər ətrafında əkilmişdir[15].

Baramaçılığın inkişafını təmin etmək və onun yem bazasını möhkəmləndirmək məqsədi ilə 2016-cı ilin payız, 2017-ci ilin yaz və payız mövsümlərində rayon ərazisində 86 min tut tingi əkilib. Əkilən tinglərin 53 mini intensiv tipli tut bağlarının salınması məqsədi ilə Çindən ölkəmizə gətirilən calaq olunmuş tinglər, qalanları isə "Şəki-İpək" ASC-nin tinglik təsərrüfatında yetişdirilən yerli tinglərdir[16].

Prezident İlham Əliyevin 2017-ci il 27 noyabr tarixli müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı təsdiqlənmişdir. Dövlət Proqramının icrası nəticəsində respublikada 2025-ci ilədək yaş barama istehsalı həcminin 6,0 min tona

---

ih.gov.az/page/37.html#2014, (12.12.2019); Məzahir Əhmədoğlu, "İndi Şəkidə bütün məsələlərin ana xətti yüksəlişdən keçir", *Ədalət qəzeti,* 6 may, 2014-cü il.

[13] Nailə Cabbarova, "Şəki ipəyinin şöhrəti qayıdır (Şəki-İpək ASC-nin idarə heyətinin sədri Nizami Qəribovla müsahibə)", *İqtisadiyyat qəzeti,* 13-18 aprel 2018-ci il.

[14] "Azərbaycanın regionları", 276.

[15] "Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovun 2016-cı ildə Şəkinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair məruzəsi", http://sheki-ih.gov.az/page/37.html#2016, (12.12.2019).

[16] Mübariz Abdullayev, "2017-ci ildə Azərbaycanın regionlarında barama tədarükü artıb", *Yeni Azərbaycan qəzeti,* 23 yanvar, 2018-ci il.

çatdırılması nəzərdə tutulur. 2017-ci ildə Çindən 6200 qutu yüksək keyfiyyətli ipəkqurdu toxumu gətirilərək 30 rayonun kümçülərinə paylanır. Nəticədə 245,2 ton yaş, 18 ton quru barama istehsal olunur ki, bu da əvvəlki ildəki istehsaldan 3,5 dəfə çoxdur. 2017-ci ildə Oğuz rayonunda istehsal edilmiş 2 ton 524 kiloqram yaş barama da "Şəki-İpək" ASC-yə təhvil verilib. Əgər 2016-cı ildə "Şəki İpək" ASC-nin fəaliyyəti cəmi bir neçə ay ərzində təmin edilmişdisə, 2017-ci ildə yaş barama tədarükünün bir neçə dəfə artması müəssisənin fəaliyyətinin əsaslı şəkildə yaxşılaşması ilə nəticələnmiş və müəssisədə 600 nəfər daimi işlə təmin olunur[17].

2017-ci ildə Şəki-İpək müəssisəsində 274,5 min kvadrat metr ipək parça, 200,6 min kvadrat metr hazır pambıq-parça, 25,7 ton xam ipək istahsal olunur[18].

2017-ci ildə Azərbaycanda 2007-ci ildən bəri ilk dəfə olaraq 71 ton yaş barama istehsal olunmuşdur. 2017-ci ildə isə respublikanın 30 rayonu üzrə 244,8 ton yaş barama istehsal olunaraq, "Şəki-İpək" ASC-yə təhvil verilmişdir. 2018-ci ilin ilk aylarında müəssisədə 23 tondan çox xam ipək istehsal olunmuşdu. Əvvəlki il isə ipək istehsalı 9 ton olmuşdu. Qalan xammalla daha 2 ton xam ipək istehsal etmək mümkün olacaq.

Qeyd etmək lazımdır ki, məhz ölkə başçısının təşəbbüsü ilə həyata keçirilən operativ tədbirlər nəticəsində bu sahədə ciddi dönüş yaranmış, Şəki ipək kombinatı öz fəaliyyətini bərpa etmişdir. Hazırda "Şəki-İpək" ASC-nin istehsal gücü ildə 135 ton xam ipəkdir. Yəni, müəssisədə üçnövbəli iş rejimində 1350 ton yaş barama emal oluna bilər. 2017-ci ildə bu müəssisədə 575 işçi çalışırdı. Müəssisənin İran və Türkmənistanla iqtisadi əlaqələri var. Bu ölkələrə ipəkdən toxunmuş ağardılan, yuyulan və emala hazır olan ipək parça ixrac olunur. Artıq Türkiyə şirkətləri də bu müəssisənin məhsulları ilə maraqlanır. Bundan əlavə, il ərzində müəssisədə 10 minə yaxın ipək kəlağayı da istehsal olunur. Bu məhsul əsasən ölkə daxilində satılır. Azərbaycanın kəlağayı sənəti "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı

---

[17] Nailə Cabbarova, "Şəki ipəyinin şöhrəti qayıdır", *İqtisadiyya qəzetit,* 13-18 aprel, 2018-ci il; Əhmədoğlu, "Ənənələri yaşadan və modernləşən Şəki".
[18] "Azərbaycanın regionları", 266.

ilə UNESCO-nun Qetri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib[19].

Qısa müddətdə ipəkçiliyin inkişafı sahəsində görülən tədbirlər şəhər əhalisinin məşğulluq probleminin həll olunmasında mühüm rol oynamış, ötən il 514 ton yaş barama tədarük etmiş, müəssisənin ilboyu işləməsi üçün zəmin yaranmışdır. 2018-ci ildə Şəki-İpək müəssisəsində 600 nəfərə yaxın işçi çalışırdı. Keyfiyyətli Şəki ipəyindən hazırlanan müxtəlif məhsulların Avropa bazarlarına çıxarılması istiqamətində intensiv iş aparılır. Milli mədəniyyyətimizin ayrılmaz tərkib hissəsi olan ipəkçiliyin inkişafı barama istehsalının artırılmasını tələb edir. Bu məqsədlə yem bazasının genişləndirilməsi üçün son 3 ildə Şəkinin baramaçılıqla məşğul olan kəndlərində 376570 ədəd tut tingləri əkilmiş, yeni kümxanalar qurulmuşdur. Baramaçılığın inkişafı ilə bağlı həyata keçirilmiş tədbirlər rayonda barama istehsalının dinamik inkişafına müsbət təsir göstərmişdir. Belə ki, rayonda 2018-ci ildə 48,2 ton barama istehsal edilmiş, 2851 nəfər işlə təmin olunmuşdur. 2018-ci ildə kümçülər ümumilikdə 400 min manatdan çox gəlir əldə etmişlər[20].

2018-ci ildə Şəki rayonunun sosial-iqtisadi inkişafının yekunları ilə tanış olmaq üçün digər konkret faktlara nəzər salaq. 2018-ci ilin I rübündə Şəki rayonunda ilkin hesablamalara görə, faktiki qiymətlərlə 95 milyon 232 min manatlıq məhsul, bütövlükdə il üçün isə istehsalın əsas sahələrində ilkin hesablamalara görə faktiki qiymətlərlə 459 milyon 235 min manatlıq məhsul buraxılmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 113 faiz təşkil edir. Buraxılmış məhsulun 9 faizi dövlət, 91 faizi qeyri-dövlət mülkiyyətinin payına düşür. Adambaşına faktiki qiymətlərlə 2462 manatlıq məhsul istehsal olunmuş, pərakəndə əmtəə dövriyyəsi 418 milyon 359 min manat olmuşdur ki, bu

---

[19] Nailə Cabbarova, "Şəki ipəyinin şöhrəti qayıdır", *İqtisadiyya qəzetit,* 13-18 aprel, 2018-ci il; "Şəki-İpək" ASC yeni inkişaf mərhələsində: nəticələr ürəkaçandır", https://azertag.az/xeber/Seki_Ipek_ASC_yeni_inkisaf_merhelesinde_neticeler_urekachandir-1124050. (12.12.2019); "Modernləşən qədim Şəki. Onun sədası min illərdən gəlir" *Ədalət qəzeti,* 7 noyabr, 2017-ci il.

[20] İlham Pənahov, "Qədim Şəki müasirləşir və gözəlləşir" (Şəki şəhər icra hakimiyyətinin başçısı E.Usubovla müsahibə), *Respublika qəzeti,* 24 fevral, 2019-cu il.

da 2017-ci ilin müvafiq dövrünə nisbətən 101,7 faiz təşkil edir. Əhaliyə göstərilən pullu xidmətlərin həcmi isə 100 milyon 583 min manat olmuşdur ki, bu da 2017-ci illə müqayisədə 104,8 faiz təşkil edir. Rayonda 2018-ci ildə 2118 yeni iş yeri açılmışdır ki, bunun da hamısı daimi iş yerləridir. Yeni açılmış iş yerlərinin 15 faizi yeni yaradılmış müəssisə və təşkilatların, 27,2 faizi mövcud müəssisə və təşkilatların, 87,4 faizi isə fiziki şəxslərin payına düşür. Hazırda rayonda 22 sənaye müəssisəsi fəaliyyət göstərir ki, bunların da 10-u kiçik müəssisədir. 2018-ci ildə rayonda iqtisadi və sosial sahələrin inkişafına bütün maliyyə mənbələri hesabına yönəldilmiş investisiyanın həcmi 109 milyon 128 min manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 120,7 faiz təşkil edir. İstifadə edilmiş investisiyanın 87,6 faizi dövlət mülkiyyətinin, 12,4 faizi qeyri-dövlət mülkiyyətinin payına düşür. Əsas kapitala yönəldilmiş investisiyanın 100 milyon 938 min manatı və ya 92,5 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 122,1 faiz təşkil edir[21]. Adambaşına faktiki qiymətlərlə 513 manatlıq məhsul buraxılmışdır. Rayon üzrə orta aylıq əməkhaqqı 256 manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz çoxdur. 2018-ci ilin I rübündə Şəki rayonunda əmtəə dövriyyəsinin ümumi həcmi 118 milyon 714 min manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 1 faiz çoxdur.[22].

Şəki eyni zamanda Azərbaycanın qədim sənətkarlıq mərkəzlərindəndir. Qədim xalq sənətkarlığının inkişaf etdirilməsi məqsədi ilə Şəki Sənətkarlar Assosiasiyası üçün Yuxarı Karvansaray binasında 25 otaq ayrılmışdır. Respublikada keçirilən sərgi yarmarkalarında rayonun sənətkarlıq məhsullarının nümayişi təşkil edilir. Almaniya Texniki Əməkdaşlıq Təşkilatı tərəfindən həyata keçirilən "Sənətkarlığın inkişafı" layihəsi çərçivəsində rayon sənətkarlarına müvafiq köməklik göstərilir. Dünya Bankının dəstəyi ilə həyata keçirilən "Mədəni irsin qorunması" layihəsi əsasında qala divarları ərazisində yerləşən keçmiş

---

[21] Məzahir Əhmədzadə, "Tərəqqi: Qədim - müasir Şəki", *Ədalət qəzeti*, 1 mart, 2019-cu il, 3.
[22] Məzahir Əhmədzadə, "Dağlar kimi əzəmətli... Şəki" *Ədalət qəzeti*, 3 may, 2018-ci il, 4.

həbsxana binasının bir hissəsi əsaslı təmir edilərək 18 emalatxanadan və sərgi salonundan ibarət Şəki Biznes-Sənətkarlıq və Turizm Mərkəzi yaradılmışdır[23].

2007-ci ildə ildə Şəkidə ilk dəfə olaraq "Sənətkarlar günü" bayramı keçirildi. Xalqımız üçün ənənəvi sənət sahələrinin qorunub saxlanılması, unudulmaqda olan bir çox sənət növlərinin bərpa edilməsi, həmçinin turizmin inkişafı baxımından belə tədbirlər böyük önəm daşıyır. "Sənətkarlar günü" bayramında bir çox qonaqlar, o cümlədən xarici dövlətlərin ölkəmizdəki səfirlərinin iştirak etməsi bu qəbil tədbirin lokal səviyyəni aşaraq, miqyas və əhəmiyyət etibarı ilə ümumölkə səciyyəsi kəsb etdiyindən xəbər verirdi.

2010-cu il aprelin 3-də Şəki şəhərinin mərkəzində yerləşən parkda "Şəki - Azərbaycanın Sənətkarlıq Paytaxtı – 2010" ilinin təntənəli açılış mərasimi baş tutdu. Mərasimdə şəhər rəhbərliyi, Mədəniyyət və Turizm Nazirliyinin, eləcə də ictimaiyyətin nümayəndələri iştirak etmişdilər. Tədbirin keçirildiyi park "paytaxt ili"nin rəmzləri ilə, o cümlədən loqotip, bayraq, lövhə və digər əyani vəsaitlərlə bəzədilmiş, iştirakçılara bayram hədiyyələri paylanmışdı. Parkda gənc xalça ustalarının toxuduğu "Qımı", "Gülüstan", "Şirvan" xalçaları nümayiş etdirilmişdi. Şəkidə "Şəbəkə" dərnəyində 15 gənc şəbəkəçilik sənətinin sirlərini öyrənir[24]. 2009-cu ilə olan məlumata görə, Şəkidə xalq tətbiqi sənətinin 18 növü üzrə 300-dən çox sənətkar fəaliyyət göstərirdi[25]. 2016-cı ilə olan məlumata görə isə Şəkidə 27 sənət növü sənətkarlar tərəfindən inkişaf etdirilir. Bunlara nümunə olaraq şəbəkə, ağac üzərində, daş üzərində oymalar, zərgərlik, gümüşbəndi, şalbəndi, dabbaqlıq, papaqçılıq, halvaçılıq, kəlağayıçılıq, dulusçuluq və başqaları göstərilə bilər[26].

---

[23] "Regionların sosial-iqtisadi inkişafı (2004-2008-ci illər)." *Az. Res. Dövlət St. Komitəsi*, oktyabr, 2008-ci il, 205-206.
[24] Telman Nəzərli, "Sənətkarlıq paytaxtı Şəki", *Azərbaycan qəzeti,* 18 aprel, 2010-cu il.
[25] "Zəngin təssüratla", *Mədəni maarif jurnalı*, 2009, sayı 8-9, 78-80.
[26] Əli Səlimov, "Tarixi yaşadan Şəki", *Azərbaycan qəzeti,* 7 sentyabr, 2016-cı il, 7.

**Nəticə**

Məqalədə gətirilən faktlar Şəkidə sənayenin istər kəmiyyət istərsə də keyfiyyət baxımından son illərdə böyük dəyişikliklərdən keçdiyindən xəbər verir. Özü də məsələ sadəcə yeni sənaye müəssisələrinin açılması, istehsalın daim yüksəlməsi ilə məhdudlaşmır. Azərbaycan rəhbərliyi respublikamızın uzunmüddətli və dayanıqlı tərəqqisini nəzərdə tutan sosial-iqtisadi strategiyasına uyğun olaraq, bölgələrdə, o cümlədən Şəkidə müasir texnoloji çağırışlara cavab verməyə qadir yeni tip müəssisələr qurmaqdadır. Bu, əvvəlki sovet dövrü ilə müqayisədə tam fərqli sənaye mənzərəsinin təşəkkülünə gətirib çıxarır. İndiki meyllərin qaldığı təqdirdə Şəki və bölgəsinin də daxil olduğu bütövlükdə Şəki-Zaqatala iqtisadi rayonu güclü və rəqabətəqabil aqrosənaye regionuna çevriləcəkdir.

## Ədəbiyyat

ABDULLAYEV, M., "2017-ci ildə Azərbaycanın regionlarında barama tədarükü artıb", *Yeni Azərbaycan qəzeti,* 23 yanvar, 2018-ci il.

"“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planı", *Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,* 28 fevral, 2014-cü il, sy. 2.

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” (Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cü il tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmişdir), *Azərbaycan Respublikasının Qanunvericilik Toplusu*, yanvar, 2019-cu il, sy. 1.

"Azərbaycan regionları", *Statistik məcmuə,* Bakı: Az. Respublikasının Dövlət Statistika Komitəsi, 2015.

"Azərbaycan regionları", *Statistik məcmuə,,* Bakı: Az. Respublikasının Dövlət Statistika Komitəsi, 2016.

"Azərbaycan regionları", *Statistik məcmuə,,* Bakı: Az. Respublikasının Dövlət Statistika Komitəsi, 2017.

"Azərbaycan regionları", *Statistik məcmuə.* Bakı: Az. Respublikasının Dövlət Statistika Komitəsi, 2018.

CABBAROVA, N., "Şəki ipəyinin şöhrəti qayıdır”, (Şəki-İpək ASC-nin idarə heyətinin sədri Nizami Qəribovla müsahibə), *İqtisadiyyat qəzeti*, 13-18 aprel, 2018-ci il.

ƏHMƏDOĞLU, M., "Ənənələri yaşadan və modernləşən Şəki", *Ədalət qəzeti*, 8 noyabr, 2015-ci il.

ƏHMƏDOĞLU, M., "İndi Şəkidə bütün məsələlərin ana xətti yüksəlişdən keçir", *Ədalət qəzeti,* 3 may, 2014-cü il.

ƏHMƏDZADƏ, M., "Dağlar kimi əzəmətli... Şəki", *Ədalət qəzeti,* 3 may, 2018-ci il.

ƏHMƏDZADƏ, M., "Tərəqqi: Qədim - müasir Şəki", *Ədalət qəzeti,* 1 mart, 2019-cu il.

"Modernləşən qədim Şəki. Onun sədası min illərdən gəlir", *Ədalət qəzeti,* 7 noyabr, 2017-ci il.

NƏZƏRLİ, T., "Sənətkarlıq paytaxtı Şəki", *Azərbaycan qəzeti*, 18 aprel, 2010-cu il.

PƏNAHOV, İ., "Qədim Şəki müasirləşir və gözəlləşir”, Şəki şəhər icra hakimiyyətinin başçısı E.Usubovla müsahibə, *Respublika qəzeti*, 24 fevral, 2019-cu il.

"Regionların sosial-iqtisadi inkişafı (2004-2008-ci illər)”, *Az. Res. Dövlət St. Komitəsi*, oktyabr, 2008-ci il, 205-206.

SƏLİMOV, Ə., "Tarixi yaşadan Şəki", *Azərbaycan qəzeti,* 7 sentyabr, 2016-cı il.

"Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovun 2014-cü ildə Şəkinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair məruzəsi", http://sheki-ih.gov.az/page/37.html#2014 (12.12.2019).

"Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovun 2016-cı ildə Şəkinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair məruzəsi", http://sheki-ih.gov.az/page/37.html#2016(12.12.2019).

"“Şəki-İpək” ASC yeni inkişaf mərhələsində: nəticələr ürəkaçandır", https://azertag.az/xeber/Seki_Ipek_ASC_yeni_inkisaf_merhelesinde_neticeler_urekachandir-1124050 (12.12.2019).

"Zəngin təəssüratla.", *Mədəni maarif jurnalı,* 2009, sy. 8-9, 78-80.